**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

# AZƏRBAYCANDA ƏNCİR İSTEHSALI İLƏ BAĞLI

# A R A Y I Ş



**Bakı – 2021**

# MÜNDƏRİCAT


1. **Sahə, istehsal və məhsuldarlıq göstəriciləri ........ 3**
2. **Qiymət göstəriciləri ........ 6**
3. **İdxal və ixrac göstəriciləri ........ 6**
4. **Qlobal istehsal, idxal və ixrac göstəriciləri ........ 7**

## 1. Sahə, istehsal və məhsuldarlıq göstəriciləri

2020-ci ilin məlumatına əsasən Azərbaycanda əncir bağlarının əkin sahəsi 1.97 min hektar olub. 2020-ci ildə əncir bağlarının sahəsi 2015-ci ilə nisbətən isə 3.7%, 2019-cu ilə nisbətən isə 0.5% artıb. Ümumi əncir bağlarının 1.90 min hektarı və ya 96.4%-i barverən yaşdadır *(Qrafik 1).*

**Qrafik 1. Azərbaycanda əncir bağlarının sahəsi, min ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə cəmi əncir bağlarının 13.6%-i Bakı şəhərinin, 8.3%-i Saatlı, 5.6%-i Abşeron, 3.2%-i Bərdə, 3.0%-i Xaçmaz, 2.6%-i Goranboy, 2.6%-i Zaqatala, 2.6%-i Şabran, 2.5%-i İmişli, 2.4%-i Sabirabad, 53.6%-i isə digər rayonların payına düşüb *(Cədvəl 1).*

**Cədvəl 1. 2020-ci ildə əncir bağlarının rayonlar üzrə strukturu**

| İqtisadi rayonlar | Cəmi əkmələr, ha | ondan bar verən yaşda, ha | İl ərzində yeni salınmış bağlar, ha |
|---|---|---|---|
| **Ölkə** | **1,968.1** | **1,904.9** | **7.7** |
| Bakı | 268.6 | 265.6 | 3.0 |
| Saatlı | 162.8 | 149.9 | - |
| Abşeron | 109.8 | 109.8 | - |
| Bərdə | 62.0 | 62.0 | - |
| Xaçmaz | 58.3 | 58.3 | - |
| Goranboy | 52.0 | 52.0 | - |
| Zaqatala | 51.0 | 50.0 | - |
| Şabran | 50.8 | 50.3 | - |
| İmişli | 49.0 | 49.0 | - |
| Sabirabad | 48.0 | 48.0 | - |
| Digər | 1,055.8 | 1,010.0 | 4.7 |

***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə əncir istehsalı 2015-ci ilə nisbətən 26.8%, 2019-cu ilə nisbətən isə 1.7% artaraq 12.3 min ton olub *(Qrafik 2).*

**Qrafik 2. Azərbaycanda əncir istehsalı, min ton**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə əncir istehsalının 45.0%-dən çoxu Cəlilabad (6.0%), Ucar (5.7%), Bakı şəhəri (5.5%) Ağcabədi (5.4%), Bərdə (5.4%), Sabirabad (4.6%), Şəmkir (4.1%), İmişli (3.6%), Qazax (3.4%) və Masallı (3.3%) rayonlarının payına düşüb *(Qrafik 3).*

**Qrafik 3. Əsas istehsalçı rayonlarda məhsul yığımı, ton**




***Mənbə: Dövlət Statistika Komitəsi***

2020-ci ildə əncirin məhsuldarlığı 2015-ci ilə nisbətən 15.5%, 2019-cu ilə nisbətən isə 0.3% artaraq 64.1 sent/ha olub *(Qrafik 4).*

**Qrafik 4. Azərbaycanda əncirin məhsuldarlığı, sent/ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

Əncirin istehsalçı rayonları olan Ağcabədi, Ucar, Şəmkir, Cəlilabad, Qazax, Sabirabad, Masallı, Bərdə, və İmişli rayonlarında məhsuldarlıq göstəricisi ölkə üzrə orta göstəricidən yüksəkdir *(Qrafik 5).*

**Qrafik 5. Əncirin məhsuldarlığı, sent/ha**




***Mənbə: Dövlət Statistika Komitəsi***

## 2. Qiymət göstəriciləri

- 2019-2020-ci illər ərzində əncirin 1 kiloqramının topdan satış qiymətləri 0.82-1.61 AZN arasında dəyişib *(Qrafik 6).*

**Qrafik 6. Əncirin topdan satış göstəriciləri, AZN/kq**




***Mənbə: aqrarbazar.az***

## 3. İdxal və ixrac göstəriciləri

- 2020-ci ildə Azərbaycanın qurudulmuş əncir idxalı 2019-cu ilə nisbətən 37.6% azalaraq 54.1 ton olub *(Cədvəl 2).*
- Azərbaycana qurudulmuş əncir əsasən Türkiyədən idxal olunur.
- 2020-ci ildə Azərbaycandan Rusiya Federasiyasına cüzi həcmdə (1.5 ton) təzə əncir ixrac olunub.

**Cədvəl 2. Təzə və ya qurudulmuş əncirin idxal həcmi**

| İllər | İdxal | |
|---|---|---|
| | miqdarı, ton | məbləği, min ABŞ dolları |
| **2015** | 112.9 | 69.9 |
| **2016** | 51.0 | 81.0 |
| **2017** | 77.1 | 178.0 |
| **2018** | 114.3 | 210.2 |
| **2019** | 86.6 | 296.9 |
| **2020** | 54.1 | 166.5 |

***Mənbə: Dövlət Gömrük Komitəsi***

## 4. Qlobal istehsal, idxal və ixrac göstəriciləri

- 2019-cu ildə dünya üzrəl əncir istehsalı 2018-ci ilə nisbətən 7.4% artaraq 1.3 milyon ton olub *(Qrafik 7).*

**Qrafik 7. Dünya üzrə əncir istehsalı, milyon ton**




***Mənbə: Faostat.org***

- FAO-nun məlumatına əsasən dünya üzrə 2019-cu ildə 1.3 milyon ton əncir istehsal olunub. Dünya üzrə istehsal olunan əncirin 80.0%-dən çoxu 10 ölkənin payına düşüb *(Qrafik 7).*

**Qrafik 8. Əncirin qlobal istehsal göstəriciləri, min ton**




***Mənbə: Faostat.org***

2019-cu ildə qlobal bazarda əncir ixracının həcmi 158.2 min ton və ya 568.5 milyon ABŞ dolları olub *(Qrafik 8).*

**Qrafik 9. Qlobal əncir ixracının həcmi**




***Mənbə: Trademap.org***

Dünya üzrə əncir ixracının 80%-dən çoxu Türkiyə, Əfqanıstan, İspaniya, Səudiyyə Ərəbistanı, Suriya, Avstriya, Almaniya, Hollandiya, Yunanıstan və BƏƏ-nin payına düşüb *(Qrafik 9).*

**Qrafik 10. Qlobal əncir ixracının ölkələr üzrə strukturu**




***Mənbə: Trademap.org***

Qlobal bazarda əncir idxalında Almaniya (11.6%), Fransa (11.2%), ABŞ (7.9%), Hindistan (7.7%) və Birləşmiş Krallıq (4.8%) olmaqla ilk beşlikdədir.

**Kənd Təsərrüfatı Nazirliyi tabeliyində**

**Aqrar Tədqiqatlar Mərkəzi**

**tərəfindən hazırlanıb**


**Əlaqə:**

(+994 12) 599-08-88

www.atm.gov.az

info@atm.gov.az

Nizami küçəsi, 92
AZ 1010 Bakı, Azərbaycan


AQRAR TƏDQİQATLAR MƏRKƏZİ